1_Layout 1 29.07.2022 9:35 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 15 (629)

30 iyul 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

DİN DAXİLİ QOŞUNLAR

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## MÜSTƏQİL SİYASƏTİN BEYNƏLXALQ NAİLİYYƏTLƏRİ

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Müstəqil siyasətin beynəlxalq nailiyyətləri" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Hər bir uğuru ilə qürur duyduğumuz doğma Vətənimiz özünəməxsus, həm də bənzərsiz inkişaf yolu, sürətli irəliləyişi ilə gündən-günə qüdrətlənir, dünya siyasət arenasında layiqli yerini möhkəmləndirir.

Müstəqil Azərbaycanın son illərdə inanılmaz dərəcədə dəyişdiyini, onilliklərə bərabər yol qət etdiyini hazırda hər kəs etiraf edir. Azərbaycan sürətli inkişafı ilə zamanı da qabaqlayır.

Son illərdəki yüksək nailiyyətlər fonunda hər bir yeniliyi, uğuru ictimai həyatın reallığı kimi dəyərləndiririk. Əslində, belə də olmalıdır. Azərbaycan son illərdə ölkə rəhbəri İlham Əliyevin müəyyənləşdirdiyi strateji xətlə irəliləyir və misilsiz uğurlara imza atır.



### Azərbaycana olan beynəlxalq inam

Prezident İlham Əliyev bu il beynəlxalq münasibətlər sahəsində qazanılmış nəticələr sırasında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xüsusi vurğuladı. Ölkəmizin bu təşkilata 2019-cu ildən uğurla rəhbərlik etdiyini, bu statusda mükəmməl bir nümunə yaratdığını, təşkilatın inkişafına böyük tarixi töhfələr verdiyini nəzərə alaraq Qoşulmama Hərəkatı təmsilçisi olan ölkələrin yekdil rəyi ilə Azərbaycanın quruma sədrliyi daha bir il - 2023-cü ilə qədər uzadılıb. Qoşulmama Hərəkatında 120 ölkə təmsil olunur. Bu təşkilat BMT-dən sonra bütün dünyada ölkələri bir araya gətirən ikinci ən böyük təşkilatdır. Azərbaycan haqqında verilən müvafiq qərar bir tərəfdən dövlətimizin bu qədər ölkə arasında qazandığı yüksək nüfuzunun göstəricisidir, digər tərəfdən də Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın bu təşkilatın fəaliyyətinə verdiyi töhfələrə ədalətli qiymətdir. Eyni zamanda, bu ölkələrin Azərbaycana olan güclü inamının ifadəsidir.

Azərbaycanın sədrlik müddətində Qoşulmama Hərəkatının inkişafı ilə bağlı gördüyü işlər sırasında təşkilatın institusional inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər xüsusi yer tutur. Bildiyimiz kimi, iyunun sonunda Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradıldı və Parlament Şəbəkəsinin ilk toplantısı keçirildi. Belə bir şəbəkənin yaradılması Azərbaycanın təşəbbüsüdür.

Bunun ardınca təşkilatın Gənclər Şəbəkəsinin formalaşdırılması kimi mühüm təşəbbüslər də var. Qoşulmama Hərəkatının Bakıda keçirilmiş toplantısı bu Hərəkatın çox böyük potensiala malik olduğunu, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün çox önəmli platforma kəsb etdiyini göstərdi. Azərbaycan da Qoşulmama Hərəkatının imkanlarından bəşəriyyətin rifahı naminə məqsədyönlü istifadə üçün çalışır, bu istiqamətdə gücünü əsirgəmir, dövlətimizə olan inamla imkanları reallığa çevirir.

Azərbaycan bu inamı sözünə sadiqliyi, verilən bəyanatlarla atılan addımların bir-birini tamamlaması, həlledici anlarda məsuliyyətli davranışları ilə qazanıb.

COVID-19 pandemiyasının bütün dünyanı cənginə aldığı ən ağır vaxtlarda Azərbaycan dövləti öz vətəndaşlarını bu bəladan qorumaq üçün ardıcıl tədbirlər görməklə yanaşı, ehtiyac içində olan, əhalisi çarəsizlikdən kütləvi ölüm təhlükəsi ilə üzləşmiş ölkələri də unutmadı.

### Milli maraqlar hər şeydən üstündür

Dövlət rəhbərimiz müşavirədə Avropa İttifaqı ilə əlaqələrin inkişafı məsələlərinə də diqqət yönəltdi. Bildirdi ki, hazırda Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır.

Azərbaycanla Avropa İttifaqı arasında çox yüksəksəviyyəli münasibətlər, sıx əməkdaşlıq mövcuddur. Bu, cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə münasibətlərində, qarşılıqlı səfərlər və yüksəksəviyyəli dialoqda, birgə fəaliyyətin real nəticələrində özünü aydın şəkildə göstərir.

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri, Azərbaycanla imzalanmış memorandum da ikitərəfli əlaqələrin yüksək səviyyəsinin göstəricisidir. Enerji təhlükəsizliyi ilə bağlı imzalanmış bu memorandum əməkdaşlığımızın daha da önə, irəliyə keçməsinə zəmin yaratdı.

### Beynəlxalq əlaqələr daxili məsələlərin də uğurla həllinə imkan yaradır

Azərbaycan türk dünyasının aparıcı ölkələrindən biri kimi bu coğrafiyada da mövqelərini gücləndirir, türkdilli dövlətlərin birliyinə ardıcıl töhfələr verir, bu ölkələrlə münasibətləri inkişaf etdirir. Ölkəmizin Türk Dövlətləri Təşkilatı çərçivəsində göstərdiyi fəallıq, təşəbbüskarlıq bunun təsdiqidir.

Azərbaycan bütün bunlara paralel şəkildə Rusiya, İran, Gürcüstan kimi qonşularımızla da münasibətləri inkişaf etdirir.

### Ermənistan öhdəliklərinin icrasından boyun qaçırır

Bu baxımdan, Azərbaycan Vətən müharibəsindəki qələbəsindən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Ermənistanla tez bir zamanda sülhün əldə olunmasında maraqlıdır. Məcburən kapitulyasiya aktına imza atmış Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən hələlik boyun qaçırmağa çalışması, əfsus ki, sülhə mane olur. Vətən müharibəsindən 1 il 8 ay ötsə də, Ermənistan hələ də öhdəliklərini yerinə yetirmək istəmir. Sülhə doğru ortada olan cüzi nəticələr də Azərbaycanın təşəbbüsünün və ardıcıl cəhdlərinin nəticəsidir.

Azərbaycan 10 noyabr Bəyannaməsində üzərinə götürdüyü öhdəliklərin hər birinə əməl edib, bu məsələdə də sözünə sadiqlik göstərib. O cümlədən, Bəyannaməyə uyğun olaraq Laçın yolunun təhlükəsizliyini təmin edib. Bunun müqabilində Ermənistan öz öhdəliklərinin icrasını yubadaraq Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin qurulmasına hələ də şərait yaratmır, bu istiqamətdə heç bir iş görmür. Bu günə qədər Zəngəzur dəhlizinin Mehri hissəsində tikiləcək dəmir yolunun texniki-iqtisadi əsaslandırılmasının hazırlanması, avtomobil yolunun marşrutunun təqdim olunmaması Ermənistanın qeyri-müəyyən niyyətlərindən, konkret öhdəliklərindən yayınmaq cəhdlərindən xəbər verir.

Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi, "dəmir yumruq" yerindədir. Ermənistan on illərlə yol verdiyi tarixi səhvlərdən nəticə çıxarıb öhdəliklərini yerinə yetirməli, regionda sülhə, əməkdaşlığa, qarşılıqlı inkişafa çalışmalıdır.

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyulun 15-i Daxili İşlər Nazirliyində 2022-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan respublikanın Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə təhlükəsizliyin etibarlı təmin edildiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən cənab Prezidentin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 26 əməkdaş dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

İlin ikinci yarısında da qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən general-polkovnik V.Eyvazov onların ətraflı müzakirə edilməsi, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini bildirib.



Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda daxili işlər və prokurorluq orqanları üzrə 17.411 cinayətin qeydə alındığını, onların 84 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər olduğunu, 90,2 faizinin açılmasının təmin edildiyini, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin və mülkiyyət əleyhinə olanların 2 faiz, o cümlədən, oğurluqların 2,7, mənzillərdən edilənlərin 4,9, soyğunçuluqların 9,7, quldurluqların 0,8, hədə-qorxu ilə tələb etmələrin 1,2, avtonəqliyyat vasitəsini qaçırmaların açılmasının 2,2 faiz yaxşılaşdığını qeyd edib. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 233, "isti izlər"lə 1207 cinayətin açıldığını, 4.832 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 2.685, o cümlədən, ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən 295 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 89,2 faiz ödətdirildiyini vurğulayıb.



Məruzəçi mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 473 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 125 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 132 kiloqram çox – 1 ton 975 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 105 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

Həmçinin, bildirib ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində nazirliyin rəhbərliyi tərəfindən 1.362, o cümlədən, kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın ayrı-ayrı şəhər və rayonlarında 748 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb.

Məruzəətrafı çıxışlarda bir sıra ərazi polis orqanlarının rəisləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini diqqətə çatdıraraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

*Ardı 2-ci səhifədə.*

2_Layout 1 28.07.2022 18:52 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə.*

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olmasını, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulmasını tələb edib.



Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə, polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlığa yerinə yetirilməsinin vacibliyini Kollegiya iştirakçılarının nəzərinə çatdırıb.

Nazirliyin tədris müəssisələrində tədris və təlim prosesinin qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdiyini də qeyd edən general-polkovnik Vilayət Eyvazov ixtisaslı kadr hazırlığı, kursant və dinləyicilərdə analitik düşüncə tərzinin, müasir texnologiyalarla işləmək və ekstremal şəraitdə düzgün qərar çıxarmaq bacarığının formalaşdırılması üzrə görülən işlərə, bu istiqamətdə əldə olunmuş müsbət nəticələrə diqqət çəkib, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığının yüksəldiyini bildirib.

Kollegiya müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul etdi və növbəti iclasında onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi nəzərə çatdırıldı.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə şəxsi heyət adından minnətdarlığını bildirib və əmin edib ki, ölkədə asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək.

# "QARTAL" XÜSUSİ TƏYİNATLI DƏSTƏSİ HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİ SIRASINDADIR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir iradə" tələb edir. Bu mənada 17074 saylı hərbi hissənin "Qartal" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.





İlin istənilən fəslində, müxtəlif relyefə malik ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc tələb edən bu məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Qeyd edim ki, dəstə cari ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.



Dəstə komandiri mayor Sahib İbrahimov bildirdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı da daim diqqətdə saxlanılan əsas məqamlardandır.

Dəstə komandirinin sözlərinə görə, xüsusi təyinatlılar istənilən döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazırdırlar.



Mayor S.İbrahimov, həmçinin, vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlığın, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi xüsusilə diqqət mərkəzindədir.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" – deyə fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Firat Sadıqov bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik bir hərbi kollektivdir. Dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir".

Vətən müharibəsi zamanı dəstənin onlarla hərbi qulluqçusu döyüş əməliyyatlarına cəlb olunub, onlardan 5 nəfəri qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb, 27 nəfəri yaralanıb və ümumilikdə, 41 nəfər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, habelə Müdafiə naziri tərəfindən orden və medallarla təltif edilib.

**kapitan Şahin Cəfərzadə**

# ƏSAS MƏQSƏD DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASI, HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİDİR

25033 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri polkovnik-leytenant İsmayıl Fərmanovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz təyinatından irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyət cəlb olunduğu bütün əməliyyatlarda qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirir.

Dəstənin uğurlu fəaliyyətindən bəhs edən polkovnik-leytenant İ.Fərmanov söylədi ki, qarşıya qoyulan xüsusi tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir. Keçirilən təlim və məşğələlərin, həmçinin, aparılan tərbiyə işinin əsas məqsədi də budur. Tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçulara sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq və ixtisas hazırlığından məşğələlər keçirilir. Həmçinin, kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması barədə keçirilən məşğələlərdə tədris olunan mövzuların hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir: "Təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına xüsusi diqqət yetirilir. Şəxsi heyətin bilik səviyyəsinin artırılması, eləcə də peşə vərdişlərinin təkmilləşdirilməsi baxımından məşğələlərin böyük rolu var. Möhkəm hərbi intizam, nümunəvi xidmət və yüksək döyüş hazırlığı bizim əsas prinsiplərimizdir".

Dəstə komandiri onu da əlavə etdi ki, həftədə iki gün olmaqla qrup və yarımqrup komandirləri ilə keçirilən məşğələlər onların idarəetmə bacarıqlarının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, çətin şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır.

Tərbiyə işi saatlarında bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onu qoruyub saxlamaq mövzusunda söhbətlər aparılır. Aparılan söhbətlər kollektivdə müsbət mənəvi mühitin formalaşmasında mühüm rol oynayır. Hərbi qulluqçulara Vətənə sədaqət, dövlətə və dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlər aşılanır. Bölmədə şəxsi heyətlə tərbiyə işinin əsas istiqaməti hərbi qulluqçuların döyüş ruhunun yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi, eləcə də sağlam kollektivin yaradılmasına nail olmaqdır. Bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Gülalıyevin böyük rolu var.







Xüsusi vasitələrin tətbiqi dəstəsinin qrupları içində götürmə qrupunun fəaliyyəti də müsbət cəhətdən fərqlənir. Kütləvi iğtişaşların qarşısının alınması zamanı ən son məqamda iğtişaşçılar içində digər qrupların köməyi ilə fəal şəxslərin götürülməsi onların əsas vəzifəsidir.

Polkovnik-leytenant İ.Fərmanov təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş leytenant Ağasəməd Umudlu, baş əsgər İlyas Abdullayev və əsgər Samiq Məmmədovun adlarını çəkdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 28.07.2022 18:49 Page 1



*Şəhidlərimiz*

# HƏRBİ ANDINA SADİQ OLAN CƏSUR SNAYPER

44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək torpaqlarımızı erməni işğalından azad edən şəhid silahdaşlarımızın şərəfli döyüş yolunu öyrənmək və cəmiyyətdə geniş təbliğ etmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda son damla qanınadək vuruşaraq şəhadətə yüksəlmiş cəsur xüsusi təyinatlılarımızdan biri də çavuş Süleymanov Rauf Allahverdi oğludur.

Çavuş Rauf Süleymanov 1987-ci il mayın 29-da Neftçala rayonunun Abasallı kəndində anadan olub. Allahverdi Süleymanovun (2016-cı ildə vəfat edib) və Sücayət Süleymanovanın böyüdüb boya-başa çatdırdığı üç övladından (Cavad, Əfsanə və Rauf) biri, həmçinin, ailənin sonbeşiyi idi.

Orta təhsilini 1994-2005-ci illərdə şəhid Həsən Əliyev adına Abasallı kənd tam orta məktəbində alıb. Rauf hələ yeniyetmə yaşlarından hərbi xidmətə böyük maraq göstərib, vətənpərvər ruhda böyüyərək tərbiyə alıb. Təsərrüfat işlərində valideynlərinə hər zaman dəstək olub, yaşadığı kəndin sakinləri arasında tərbiyəli, sakit təbiətli, böyük-kiçik yeri bilən, gülərüzlü və hər kəsə mehriban davranan gənc kimi tanınıb.

Ümumiyyətlə, Abasallı kəndi hər zaman Vətənə və torpağa bağlı zəhmətkeş sakinləri ilə seçilib. Kəndin respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş 4 nəfər sakinindən 3 nəfəri (Həsən Əliyev, Əlibala Abdullayev və Mirzə Nağıyev) Birinci Qarabağ müharibəsi zamanı əbədiyyətə qovuşub. Rauf isə kəndin 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış yeganə sakinidir. Həmçinin, Vətən müharibəsi zamanı cəsur silahdaşımızın yaxın qohumları - rayonun Qarabucaq kənd sakini Ağasadıq Aslanov Şuşa uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb, Yuxarı Qaramanlı kəndindən olan Yusif Abdullayev isə ağır yaralanıb.

Rauf müddətli həqiqi hərbi xidmətini 2005-ci ilin iyul ayından 2007-ci ilin yanvar ayınadək Daxili Qoşunların 12318 və



17072 saylı hərbi hissələrində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 17072 saylı hərbi hissəsinin ayrı yerləşən atıcı dağ taborunun xüsusi təyinatlı qrupunda müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. Çavuş R.Süleymanov 2008-ci ilin iyun ayından 16077 saylı hərbi hissənin, 2011-ci ilin aprel ayından etibarən isə 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstələrində müxtəlif vəzifələrdə xidmət edərək komandanlığın ona göstərdiyi etimadı doğruldub. Sonuncu vəzifəsi isə 99713 saylı hərbi hissənin "Şahin" xüsusi təyinatlı dəstəsinin snayper qrupunda atıcı-snayper olub.

Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

2019-cu ilin noyabr ayının 25-dən dekabr ayının 20-dək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilən "Snayper kursu"nda iştirak edib.

99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Elçin Babayev vaxtilə birgə xidmət etdiyi Raufun nümunəvi hərbi xidmətindən və döyüş meydanında göstərdiyi şücaətindən qürur hissi ilə danışdı: "Çavuş Rauf Süleymanov döyüş və fiziki hazırlığı hər zaman yüksək səviyyədə olan əsl xüsusi təyinatlı idi. Nizam-intizamı, təlim-tərbiyəsi və xoş rəftarı ilə kollektivdə böyük hörmət qazanmışdı. Qorxmazlıq və mərdlik Raufun əsas xarakterik xüsusiyyətləri idi. 2014-cü ildə əsl xüsusi təyinatlıya xas olan əzmkarlığı ilə qazandığı zoğalı bereti də hər zaman böyük qürur hissi ilə daşıyıb. Ona təhkim olunmuş silahın bütün taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilirdi. Daxili Qoşunların snayperləri arasında keçirilən yarışlarda hər zaman yüksək nəticələr göstərib. Bir sözlə, sərrast atıcı, əsl snayper idi. Elə məhz döyüş meydanında da Rauf öz sərrast atəşi ilə düşmənin onlarla canlı qüvvəsini məhv etməklə, hərbi andına sadiq cəsur snayper olduğunu bir daha təsdiq etdi".

Vətən müharibəsi iştirakçıları: 99713 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin snayper qrupunda qrup komandirinin müavini-snayper gizir Şamil Əhmədov və snayper qrupunda atıcı-snayper baş çavuş Aqil Əhmədov da vaxtilə bir qrupun tərkibində xidmət etdikləri çavuş R.Süleymanovun Kəlbəcərdən Cəbrayıladək keçdiyi qısa, lakin qəhrəmanlıqlarla zəngin şərəfli döyüş yolunun gənc nəslə nümunə olduğunu bildirdilər.

Bəli, Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən Raufun döyüş yolu qısa olsa da, Cəbrayıl istiqamətində vuruşarkən düşmənin xeyli sayda canlı qüvvəsinin məhv edilməsində



böyük şücaət göstərib. Belə ki, döyüşçü yoldaşı baş çavuş A.Əhmədovun da qeyd etdiyi kimi, 2020-ci il oktyabrın 5-də cəbhənin bu istiqamətində gözünü qırpmadan döyüş meydanına atılan cəsur xüsusi təyinatlımız düşmən gülləsinə tuş gələrək, əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 5-də Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Çavuş R.Süleymanov 2020-ci il oktyabrın 6-da Neftçala rayonunun Abasallı kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Süleymanov Rauf Allahverdi oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən "YouTube" internet portalı vasitəsilə yayımlanan "Sərrast atəşi ilə 60 ermənini məhv edən şəhid Rauf Süleymanov" adlı süjetdə igid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Bundan əlavə, Əlövsət Poladın və Ələkbər Zahidovun müəllifi olduqları, 2022-ci ildə "Qanun" nəşriyyatı tərəfindən çap olunan "XXI əsrin Qarabağnaməsi" adlı kitabda cəsur silahdaşımız haqqında məlumat dərc olunub.

Raufun məzunu olduğu orta məktəbdə kəndin şəhidlərinin xatirəsinə fotostend hazırlanıb, ailə üzvlərinin yaşadığı evdə isə xatirə guşəsi düzəldilib.

Qeyd edək ki, 2010-cu ildə Natavan xanımla ailə həyatı qurmuş şəhid silahdaşımızın övladı olmayıb.

**"Fəxr edirəm ki, belə bir igidin qardaşıyam. Qardaşımla, o cümlədən, bütün şəhid və qazilərimizlə qürur duyuram!"** – deyən Cavad Süleymanovun da vurğuladığı kimi, Vətən uğrunda həyatını qurban verən Rauftək igid oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

# VETERANLARIMIZ TƏRƏFİNDƏN HƏSƏNRİZ DÖYÜŞÜ ŞƏHİDLƏRİNİN XATİRƏSİ ANILIB

İyulun 19-da Daxili Qoşunların veteranlarının bir qrupu Bakıda "Əbədi məşəl"in alovlandığı Şəhidlər xiyabanında Həsənriz döyüşü şəhidlərinin qardaşlıq məzarını ziyarət edib. Həmin gün Birinci Qarabağ müharibəsi tarixində ağır itkiləri ilə xatırlanan, bununla yanaşı, Vətən naminə fədakarlıq nümunələri ilə yaddaşlarda qalan Həsənriz döyüşünün 30-cu ildönümü tamam olub.

1992-ci il iyulun 19-da keçmiş Ağdərə rayonunun Aterk kəndinin (Ağdərə rayonu ləğv edildikdən sonra Kəlbəcər rayonunun inzibati ərazisinə daxil olan və tarixi adı özünə qaytarılan Həsənriz kəndi) müdafiəsi uğrunda döyüşdə Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin onlarla hərbi qulluqçusu erməni işğalçılarına qarşı mərdliklə vuruşaraq şəhidlik zirvəsinə ucalıb və itkin düşüb. Şəhidlərimizin düşmən tərəfindən yandırılmış və torpağa gömülmüş nəşlərinin qalıqları o dövrdə Aterk (Həsənriz) işğaldan azad edildikdən sonra tapılaraq paytaxta gətirilib. Bu qalıqların qardaşlıq məzarında torpağa tapşırılması qərara alınıb. 1992-ci il iyulun 30-da Şəhidlər xiyabanında Aterk (Həsənriz) döyüşü şəhidlərinin dəfn mərasimi keçirilib.

Bir neçə il sonra Şəhidlər xiyabanındakı qardaşlıq məzarının üzərində 38 nəfər şəhidin adı həkk olunan abidə yaradılıb. Abidəyə həkk edilən adlar Aterk (Həsənriz) döyüşündə həlak olan və itkin düşən hərbi qulluqçuların ümumi siyahısından götürülüb. Ancaq sonrakı dövrdə aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, adları məzarüstü abidədə həkk olunan 38 nəfər hərbi qulluqçudan 2 nəfəri sağdır. Onlar Aterk (Həsənriz) döyüşü zamanı erməni işğalçıları tərəfindən əsir götürülüb və geri qaytarılıblar.

Beləliklə, abidənin yenidən qurulması zərurəti yaranıb. Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun təşəbbüsü ilə qardaşlıq məzarı üzərində müasir memarlıq üslubunda abidə kompleksi inşa olunub.

Veteranların iştirakı ilə keçirilən anım mərasimi şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad



olunması ilə başlayıb. Qardaşlıq məzarının üzərinə al qərənfillər qoyulub.

Daxili Qoşunların Veteranlar şurasının üzvü Cəbrayıl Qurbanov mərasimdə çıxış edib. O, Daxili Qoşunların döyüş salnaməsində hər bir qəhrəmanlıq nümunəsinin qürur və ehtiram hissi doğurduğunu vurğulayıb. Qeyd edib ki, Qarabağ müharibəsi zamanı qoşunların şəxsi heyətinin göstərdiyi şücaətlər gənc nəslə örnəkdir.

Veteran nəzərə çatdırıb ki, 1992-ci il iyulun 19-da keçmiş Ağdərə rayonunun Aterk (Həsənriz) kəndinin müdafiəsində dayanmış qoşunların 17072 saylı hərbi hissəsinin hərbi qulluqçuları qeyri-bərabər qüvvələr nisbətinə, habelə köməksiz vəziyyətdə qalmalarına baxmayaraq, cəsurluqla vuruşaraq şəhadətə ucalıblar. Mənfur düşmən şəhidlərimizin nəşlərini yandıraraq öz yırtıcı xislətini büruzə verib və törətdiyi vəhşiliyin izlərini yox etməyi qarşısına məqsəd qoyub. Döyüşçülərimizin bir çoxunun nəşi tanınmaz halda olduğundan, onların kimliklərinin təsbit edilməsində çətinliklər yaranıb.

C.Qurbanov bildirib ki, Qarabağ müharibəsi tarixində Daxili Qoşunların şəhid hərbi qulluqçularının yeganə qardaşlıq məzarı bu qəbirdir. Bu məzar nəinki şəhid ailələrinin, qoşunların veteranlarının və şəxsi heyətinin, bütövlükdə, xalqımızın ziyarət yeridir.

Çıxışda məlumat verilib ki, adıçəkilən döyüşçülərimizdən 28 nəfəri ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin "Fəxri fərman"ı ilə təltif olunub.

C.Qurbanov öz çıxışında fədakar hərbi qulluqçularımızın xatirəsinə ucaldılan məzarüstü abidənin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından mühüm rol oynadığını deyib. O, şəhidlərimizin xatirəsinə göstərdikləri ehtirama görə Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazova və Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədova veteranlar adından dərin minnətdarlığını ifadə edib.

Ehtiyatda olan baş zabit 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına Milli Ordunun bölmələri ilə yanaşı, Daxili Qoşunların şəxsi heyətinin öz layiqli töhfəsini verdiyini vurğulayıb. Azərbaycan xalqı düşməni məğlub edən, şəhidlərimizin qisasını alan, doğma yurdlarımızda müqəddəs üçrəngli bayrağımızı qaldıran igid oğulları ilə fəxr edir.

Veteran Vətən naminə həyatını qurban vermiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyib.

Mərasimdə Daxili Qoşunların Veteranlar şurasının üzvü Səfxan Bayramov və Aterk (Həsənriz) döyüşünün iştirakçısı Etibar Rzayev çıxış edərək öz müharibə xatirələrini danışıblar.

Veteranlar anım mərasimindən sonra Şəhidlər xiyabanında dəfn olunmuş qoşunların digər şəhid hərbi qulluqçularının məzarlarını ziyarət ediblər. Sonda xatirə şəkli çəkdirilib.

**Yalçın Abbasov**

# ŞƏHİD AİLƏSİ ZİYARƏT OLUNUB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirəsinə, onların ailə üzvlərinə dərin ehtiram nümayiş etdirilir. Onların həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin xidməti-döyüş fəaliyyəti gənclərə örnəkdir.

Məlumdur ki, 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti layiqincə iştirak edib. Bu baxımdan Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

Daxili Qoşunların 17074 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən hərbi hissənin bir neçə hərbi qulluqçusu ilə birgə şəhid hərbi qulluqçumuz gizir Tağızadə Cahid Vahid oğlunun Zaqatala rayonunda yaşayan ailəsinə baş çəkdim.

Cahid 12 fevral 1988-ci ildə Bərdə rayonunun Mirzalıbəyli kəndində doğulub, ailənin ilk övladı idi. Mirzalıbəyli kəndindəki Əsman İsmayılov adına tam orta məktəbi bitirib. 2006-cı ilin iyul ayından 2008-ci ilin yanvar ayınadək Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Ehtiyata buraxıldıqdan bir neçə ay sonra - 2008-ci ilin iyun ayının 25-də Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. O, 16077 saylı hərbi hissədə motoatıcı bölükdə zenit-raket heyətinin rəisi, xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri vəzifələrinə irəli çəkilib. Müvafiq kursu müvəffəqiyyətlə başa vuraraq "gizir" hərbi rütbəsinədək yüksəlib. 2012-ci ilin dekabr ayından xidmətini davam etdirmək üçün 17074 saylı hərbi hissəyə keçirilib. Hərbi hissədə xüsusi təyinatlı dəstənin həmlə qrupunda yarımqrup komandiri, atəş təminatı qrupunda minaatan yarımqrupunun komandiri, eləcə də atəş təminatı qrupunda dəzgahlı qumbaraatan yarımqrupunun komandiri kimi ona etibar olunan vəzifələrdə öz təşkilatçılığı, icraçılığı, tabeliyindəki şəxsi heyətlə



işləmək bacarığı, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə məsuliyyətlə yanaşmağı ilə fərqlənib.

Vətən müharibəsinədək hərbi xidməti dövründə gizir C.Tağızadə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə mükafatlandırılıb, şəxsi işində ona tətbiq olunan müxtəlif növ həvəsləndirmələr də qeyd edilib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı 17074 saylı hərbi hissədən ön cəbhəyə göndərilən gizir C.Tağızadə müharibənin ilk günündən döyüşə atılıb, erməni işğalçılarına qarşı cəsurluqla vuruşub. Onun döyüş yolu Murovdağ yüksəkliyi, Füzuli və Cəbrayıl rayonlarının ərazilərindən keçib. 2020-ci ilin oktyabr ayının 3-də Füzuli-Cəbrayıl rayonları istiqamətində hərbi əməliyyat zamanı şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir C.Tağızadə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Mərhumun Nərmin və Nihad adlı 2 övladı yadigar qalıb. Nərmin Vətən Müharibəsi Qəhrəmanı, Daxili Qoşunların şəhid hərbi qulluqçusu mayor Şıxamir Qaflanov adına Gimnaziyanın 3-cü, Nihad isə 1-ci sinfində oxuyur.

Görüş zamanı şəhidimizin əziz xatirəsi anılaraq ailə üzvlərinin və döyüşçü yoldaşının xatirələri dinlənildi. Şəhidin həyat yoldaşı Leyla xanım C.Tağızadə barədə qürurla danışdı. O, bildirdi ki, Cahid çox ailəcanlı və qayğıkeş bir insan idi, müharibə müddətində fürsət düşən kimi zəng edib onların hal-əhvalını soruşar, ona görə nigaran qalmamalarını tapşırardı. Hal-hazırda Cahidin ailəsinin yaşadığı mənzilində düzəldilmiş xatirə guşəsində onun mükafatlandırıldığı fərmanlar, diplomlar və medallar saxlanılır.

Leyla xanım polis orqanlarına xidmətə qəbul edilməsini vurğulayaraq, bunu Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun ailəyə göstərdiyi xüsusi qayğının təzahürü olaraq qiymətləndirdiyini bildirdi.

Şəhidimizin oğlu Nihad vətənpərvər ruhda böyüyür, yaşının az olmasına baxmayaraq, o bildirdi ki: "Mənim arzum böyüyəndə komandir olmaq, Vətənin müdafiəsində dayanmaq, düşməndən atamın qisasını almaqdır".

Ümumiyyətlə, müharibədən ötən iki ilə yaxın müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən xüsusi diqqət və qayğıdan razı qaldığını söyləyən Tağızadələr ailəsi buna görə dərin minnətdarlığını ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 29.07.2022 11:06 Page 1



# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, iyul



ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.

Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. Bunun üçün mənəvi-psixo-



loji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Seçim qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verdi ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin, hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-psixonevroloq, həkim-terapevt, baş ordinator-kardioloq, həkim-stomatoloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunub, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilib. Müayinələrdən keçən çağırışçılar barədə hərbi-həkim komissiyası tərəfindən rəylər verilib və yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni



qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ İCRA EDƏN HƏRBİ QULLUQÇULAR



Daxili Qoşunların 16076 saylı hərbi hissəsi döyüş xidmətinin aparılmasında ayıq-sayıqlıq göstərən, yüksək nizam-intizama malik hərbi qulluqçuları ilə fərqlənir. Onlar layiqincə xidmət edərək, Daxili Qoşunların nüfuzunu hər zaman uca tuturlar.

Həmin hərbi qulluqçulardan biri də kiçik çavuş İbadulla Musayevdir. O, 2000-ci ilin fevral ayının 24-də Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddə yerləşən Telman Yunusov adına 2 saylı tam orta məktəbdə alıb. 2021-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda hərbi hissənin mühafizə bölüyündə xidmətini davam etdirir. Komandirləri onu bacarıqlı, qətiyyətli, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn hərbi qulluqçu kimi xarakterizə edirlər. O, hər cəhətdən yoldaşlarına nümunədir. Hərbi hissə, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb.

Özünün dediyinə görə, idmana böyük marağı var. Hərbi xidmətə qədər 6 il ərzində sərbəst güləşlə məşğul olub. Region üzrə keçirilən yarışlarda uğur qazanıb.

Kiçik çavuş İ.Musayev bildirdi ki, o, qarovul rəisinin köməkçisi kimi tabeliyindəki şəxsi heyətlə birlikdə Daxili İşlər Nazirliyinin inzibati binasının perimetr boyunca mühafizəsini təmin edir. Sutkalıq xidmətə cəlb olunduqlarını söyləyən hərbi qulluqçumuz əlavə etdi ki, nizamnamə qaydalarına uyğun olaraq, hər iki saatdan bir saatdarlar dəyişdirilir. Qarovulun daxili qayda-qanununa, səliqə-sahmanına, şəxsi heyətin nizam-intizamına, mənəvi-psixoloji durumun yüksək səviyyədə qorunub-saxlanılmasına, tərbiyəvi iş planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə keçirilməsinə, həmçinin, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasına nəzarət etmək qarovul rəisinin köməkçisi olaraq kiçik çavuş İ.Musayevin əsas vəzifələridir. O, müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra ali təhsilini tamamlamaq, polis orqanlarının tərkibində Vətənə və xalqa layiqli xidmətini davam etdirmək arzusundadır.

Digər nümunəvi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Soltan Allahverdiyev 2003-cü il aprelin 15-də Ağcabədi rayonunda doğulub. Orta təhsilini 9-cu sinfədək Ağcabədi rayonundakı tam orta məktəbdə alıb. 2017-2021-ci illərdə Mingəçevir Turizm Kollecinin "Nəqliyyatda yükdaşımanın təşkili" fakültəsində təhsilini davam etdirib. 2021-ci ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir.




Ayıq-sayıq xidməti və özünə qarşı tələbkarlığı ilə fərqlənən hərbi qulluqçumuz məsuliyyətini dərindən dərk edərək, xidmət zamanı qarovulun fəallarından biri kimi ona həvalə olunan tapşırıqları vicdanla və dəqiqliklə yerinə yetirir. Döyüş və mənəvi-psixoloji hazırlığı qənaətbəxşdir. Təlim-tərbiyəsi baxımından əsgər yoldaşlarına nümunədir. Daxili Qoşunların əsgəri olmağı ilə fəxr edən hərbi qulluqçumuz bundan sonra da xidmətini ləyaqətlə davam etdirəcəyinə, komandirlərinin etimadını doğruldacağına söz verdi. O da gələcəkdə xidmətini polis orqanlarının sıralarında davam etdirmək arzusundadır.

Sonda əsgər S.Allahverdiyev komandanlıq tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını, bu amilin onları yeni uğurlara, ləyaqətli xidmətə ruhlandırdığını söylədi.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# GÜNVURMA VƏ İSTİVURMANIN TƏSİRİNDƏN NECƏ QORUNMALI?

Yay mövsümündə havanın hərarətinin yüksək olması, atmosfer təzyiqinin normadan yuxarı qalxması insanlarda, xüsusən də meteohəssas insanlarda ciddi fəsadlar yaradır. Qızmar günəş şüaları altında uzun müddət fasiləsiz işlə məşğul olmaq, yürüşlər etmək insanları gün və istivurma kimi real təhlükələrlə üzləşdirir. Bu baxımdan belə təhlükələrdən qorumaq məqsədilə şəxsi heyətin tibbi maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir.



Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Günvurma, əksər hallarda, başıaçıq xeyli müddət gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması, qusma, hərarətin 40 və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, digər hallarda isə açıq



günəş altında qaldıqdan və evə gəldikdən bir neçə saat sonra baş verir.

**Günvurmanın ilkin əlamətləri hiss olunduqda:**

**1.** Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır).

**2.** Zərərçəkənə soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək, başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres etmək lazımdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul isə paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək, başına buz qoymaqdır.

**3.** Zərərçəkənin hərarəti normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək olar.

**4.** Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal "təcili yardım" çağırmaq lazımdır.

**5.** Huşunu itirdiyi halda isə zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək tələb olunur.

**İstivurma əsasən uzun müddət ərzində havası boğanaq olan yerlərdə (hamamda, saunada, avtobusda, metroda və s.) qalma zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyimdən istifadə edildiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynanıldığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez baş verir.**

İstivurma, bir çox halda, qəflətən meydana çıxır: ilk baxışdan kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun hərarəti 40 və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və halusinasiyalar (qarabasmalar) qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdən-birə avazıyır. Nəbz sürətlənir, çətinliklə əllənir, tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir.

İstivurma zamanı ilk tibbi yardım günvurmada olduğu kimidir.

Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal "təcili yardım" çağırmaq və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq tələb olunur.

Çimərlikdə olarkən alkoqollu içkilərin qəbulu qəti şəkildə qadağandır. Alkoqol orqanizmdə termoriqulyasiyanı (istiliyin tənzimi) kəskin şəkildə pozduğu üçün bu, istivurmanın səbəbi ola bilər.

**DQBİ-nin Tibb xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin Jandarm Qüvvələrinə T129 "Atak" helikopteri təhvil verilib

Türkiyənin TUSAŞ şirkəti tərəfindən hazırlanan yeni T129 "Atak" helikopterləri Jandarm Baş Komandanlığına təhvil verilib. Ordu.az xəbər verir ki, bu barədə rəsmi "Twitter" hesabında Türkiyə Müdafiə Sənayesi Komitəsinin sədri İsmayıl Dəmir məlumat yayıb.

Bu çərçivədə 11-ci "Atak" helikopteri 2022-ci ilin mart ayında Jandarm Baş Komandanlığına təhvil verilib.



Müdafiə Sənayesi Komitəsinin əmri ilə ümumilikdə, 18 ədəd T129 "Atak" helikopterinin Jandarm Baş Komandanlığının aviasiya bölmələrinə təhvil veriləcəyi açıqlanıb. Ancaq Jandarm Baş Komandanlığının 2022-ci ilin mart ayında paylaşdığı hesabatda bu say 24-ə yüksəlib.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Nəzir Abdullayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan mayor Natiq Həsənovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan kapitan Nicat İsmayılovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti mayor Faiq Aslanova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti mayor Arzu İmanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000